## ZİYAD SƏMƏDZADƏ:

# "AYGÜNÜN MAHNISINDAN SONRA ABŞERONDA NƏ QƏDƏR TUT AĞACI ƏKİLDİ..."



***- Ziyad müəllim, mübaliğəsiz demək olar ki, xalq Sizi – dünya şöhrətli iqtisadçını, akademiki, Beynəlxalq İqtisad Akademiyasının vitse-prezidentini, ictimai-siyasi xadimi çox gözəl tanıyır və Sizinlə fəxr eləyir. AMEA-nın prezidenti, akademik Akif Əlizadə sizi – "Müasir Azərbaycan və eləcə dünya iqtisadi fikrinin korifeylərindən" sayır...***

***Bir də var – sənət xiridarı, musiqi vurğunu Ziyad Səmədzadə... Ümumiyyətlə, Siz, üzünüzə demək olmasın, Orta əsrlər Şərqində yaşamış bütöv, hərtərəfli, üləma və şəxsiyyətləri xatırladırsız... Tanınmış alimlərdən kimsə, elmdə və sənətdə Sizin kimi aqil olan kəsləri "qoşa qanadlı qartallar" adlandırıb. Sizdə hər iki "qanad" təbii ki, güclüdür. Ziyad müəllim, həm də bölməmizin bu dəfəki qonağı olmaqla, köklü buzovnalı olan Sizi, toplumuzun adından anadan olmağınızın 75 illiyi münasibətilə təbrik edirik...***

- Əvvəla, haqqımda dediyiniz gözəl sözlərə görə çox sağ olun. Mən də bəri başdan istərdim ki, sənətsevərləri 45 ildən artıq öz varlığı ilə sevindirən, öz intellekt səviyyəsi ilə daim oxucuları öz maraq dairəsində saxlayan "Qobustan" toplusunun yaradıcı heyətini və oxucularını səmim qəlbdən salamlayım...

***- Ziyad müəllim, İqtisadiyyat da musiqi kimi dünya xalqlarının bir-birini tərcüməsiz anladığı bir ünsiyyət dilidir, nə mənadasa ona "rəqəmlərin möcüzəsi" də demək olar. Hər halda ta Ptolomey dövründən üzü bəri rəqəmlərlə musiqi arasında olan yaxınlıqdan tez-tez bəhs olunur və bütün bunlar doğrudan da maraqlıdı...***

- Əlbəttə ki, bu sualın arxasında azman bir dünya, böyük bir məna gizlənib, çox ciddi bir yanaşma hiss olunur və ona görə də mən çalışacağam ki, imkan daxilində suallarınızı cavabsız qoymayım...

Bəli, iqtisadiyyat çox mühüm bir sahədir. İqtisad elminin özü isə bəşəri elmlər içərisində, mən deyərdim ki, heç şübhəsiz, ən qədimlərindən sayılır. Çünki, vaxtilə belə deyiblər, iqtisadiyyat ev təsərrüfatını öyrədir. Bu baxımdan iqtisadiyyat olmasa cəmiyyətin inkişafı da mümkün deyil. Və məhz hər cürə inkişafın kökündə şəksiz ki, iqtisadiyyat dayanır. Düzdür, iqtisadiyyat ilk baxışda insanlara quru elm təsiri də bağışlaya bilər. Əlbəttə, nəzəri iqtisad elmində mübahisələr də mövcuddur, fəlsəfi fikirlər də çoxdur. Yəni iqtisadiyyat - elmin inkişaf tarixi ilə həmahəngdir. Dünya elminə, elə hər hansı elmə, hansı qəbildən metodoloji prinsiplər aiddirsə, nə cürə yanaşmalar varsa, təbii ki, belə yanaşma iqtisadiyyat elmində də rastımıza çıxır. Amma real iqtisadiyyat yalnız rəqəmlərin dinamikasına, həyat səviyyəsinə arxalanır. Bəzən quru saydığımız rəqəmlərin arxasında böyük bir tərəqqi, yaxud da tənəzzül dayanır. Ona görə rəqəmləri təhlil etmədən, rəqəmlərin o daxili aləmini duymadan iqtisadiyyatla bağlı konkret fikir yürütmək çox çətindir. Belə ki, biz bu və ya digər ölkənin inkişafını, orda yaşayan əhalinin rifah, yaşayış səviyyəsini, ilk növbədə rəqəmlərə istinadən deyirik. Və dünyada ölkələr bir-biri ilə əhalisinin sayına, ərazisinə görə müqayisə olunsa da, həmin rəqəmlər özü-özlüyündə heç bir şey demir, çünki əsas məsələ məhz inkişafı xarakterizə edən rəqəmlərdir. Bu səbəbdən də mən, ömrüm boyu, yəni iqtisad elmi ilə, iqtisadiyyatla məşğul olandan, təhsil illərindən başlamış ta indinin özünəcən rəqəmlərlə müntəzəm məşğul oluram. Daha doğrusu, rəqəmlərdə böyük bir məna axtarmaqla, həmişə də yaddaşımda həmin rəqəmləri saxlayıram. Hər hansı bir anda məndən soruşsalar ki, dünyanın inkşafında bu gün hansı meyllər müşahidə olunur? Mən o meylləri rəqəmlərlə izah elərəm, bunu rəqəmlər əsasında ifadə edə bilərəm. Ona görə rəqəmlərlə işləmək, rəqəmlərdən təhlil çıxarmaq mənim üçün ən xoş anlardı və mən rəqəmlərə güvənərək müəyyən nəticələrə, elmi mülahizələrə nail olmuşam. Bu barədə çox danışmaq istəməzdim, yəqin ki, bu fəaliyyətim barədə sizin kifayət qədər məlumatınız vardır...

***- İqtisadiyyat barədə hələlik bu qədər. Şübhəsiz ki, "Qobustan"ın oxucuları sənət xiridarı, xalq musiqimizin bilicisi Ziyad Səmədzadəni daha yaxından tanımaq istərdi. Heç uzağa getməyin lüzumu yoxdur. Özünüz barədə çox tərifi xoşlamırsız. Gəlin, qızınız, tanınmış bəstəkar Aygün Səmədzadədən danışaq.Əgər demək mümkünsə, hazırda Abşeron – Bakı koloritinə, buranın havacatına, ovqatına, bu melodiyə ən yaxın bəstəkar bizcə, Aygün xanımdır. Ziyad müəllim, onun mahnıları Sizə nələr, hansı xatirələr pıçıldayır?***

- Abşeron, Bakı havacatı... Çox maraqlı sualdır. Nə deyə bilərəm? Aygünün mahnıları mənə ilk növbədə, elə Aygünün özünün uşaqlıq illərini xatırladır. Eyni zamanda fəxr eləyirəm və sevinirəm ki, bizim nəsil, o cümlədən ulu babamız Kərim bəyin özü də musiqi vurğunu olub. Təkcə Buzovnada deyil, cəmi Abşeronda barmaqla göstərilən, tanınmış, seçilib-sayılan insanlardan biriydi. Məşhur bir rus alimi var. Öz xatirələrində yazır ki, "Kərim bəyin bağındakı qonaqlıqda məni valeh edən – ordakı musiqi, xanəndələrin ifası oldu". Sözümün canı budur ki, bizim həyət-bacada, bizim mülkdə daima şeir, qəzəl, musiqi səslənib. Məsələn, Buzovnada indi də danışırlar ki, atamın toyunda Cabbar Qaryağdıoğlu oxuyub – yəni bir tərəfdə nəfəsli orkestr çalıb, bir tərəfdəsə Cabbar oxuyub. Atam ixtisasca kimyaçı olub, anam bəy qızıydı. Amma əmioğlular, atamın əmioğlanları ilə bir yerdə onlar bizim məclisdə həmişə Füzulini, Hüseyn Cavidi, Sabiri, Nəsimini əzbərdən deyirmişlər.

***- Nəslinizdəki çalğıçı olmayıb, bəs tar çalmağı hardan öyrənmisiz?***

- Uşaqlığımda tar dərsinə getmişəm. Məktəb yox idi onda, dərnək vardı. Not bilmirəm. Amma, orasını deyim ki, 50-ci illərin əvvəllindən indinin özünə qədər bizim həyətdən həmişə tar səsi gəlib... Və uşaqlığımız da musiqi sədaları altında keçib. Atam, əmioğlularım, atamın əmisi oğlanları tarın səsi altında şeir deyiblər. Həmişə bunun şahidi olmuşuq. Bizimkilərin demək olar ki, hamısı əruz vəznini sözün əsl mənasında çox yaxşı bilib. Baxmayaraq ki, aralarında neftçi də vardı, kimyaçı da... ancaq hamısı sənətə həvəsli idi... Aygünun özü də musiqi sədaları altında böyüyüb. Hər dəfə mən çalırdım, uşaqlar oynayırdı. Və deyim ki, ta uşaqlıqdan Aygündəki istedadın şahidi olmuşam. Hələ o musiqi məktəbinə getməmişdən əvvəl... Onda cəmi beş-altı ay olardı ki, bizim evdə piano vardı. O vaxtlar Nazim müəllim Əliverdibəyov Bülbül adına Bakı musiqi məktəbinin direktoru idi. Not bilmədən belə Aygündə fitri istedad vardı. Deməyin ki, qızını çox tərifləyir, amma Aygün eyni zamanda çox savadlı qızdır. Hələ uşaq vaxtından Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini həvəslə araşdırır, dərindən öyrənirdi. Azərbaycanın xalq artisti, çox böyük sənətkarımız, anamın doğmaca əmisi qızı Nəcibə Məlikovanın atası Haşım bəy Sağib 19-cu əsrin axırları 20-ci əsrin əvvəllərində Azərbaycanda klassik şairlərdən sayılıb. Onun qəzəllərinin bir hissəsi it-bat olub. Əliağa Vahid onu özünün ustadı adlandırıb. Sağib Abşeronda tanınan, həqiqətən seçilib-sayılan şairlərdən idi. Sözüm onda yox... Yadımdadı, Aygün

6-cı sinifdə oxuyurdu, yainki 5-də. İnşa yazmışdı Bakı haqqında. Nəcibə xanım bizə, Buzovnaya, bağa gəlmişdi. İnşanı oxudu və ağladı. Aygünün alnından öpdu ki, sənin böyük gələcəyin var... Qızım olduğu üçün demirəm, inanın, Aygünün doğrudan da qeyri-adi təbiəti var. Haqsızlığa qarşı, təbiətin qədrini bilməyənlərə, ağac kəsənlərə, heyvanlara münasibətdə amansız mövqe tutanlara qarşı həmişə öz sözünü deyib və bu barədə yeri gələndə mətbuatda çıxış eləyib. Yəni Aygünün, bütün mahnılarında xatirələrlə yanaşı, bütün Azərbaycan torpağına, Bakıya, Abşerona tükənməz bir məhəbbət var. İnanmıram ki, onun mahnılarını dinləyən kəs, onlara biganəlik göstərsin. "Bakı haqqında nağıl", "Bakı küləyi", "Tut ağacı", sonra "Azərbaycan", "Payız yağışı". Mənim fikrimcə, saydığım mahnılar klassik üslubda yazılan, yaddaşdan silinməyən mahnılardı. Yəqin ki, siz də eşitmisiz – onların hərəsi bir nağıldı – biri vardı, biri yoxdu... yəni motiv elə seçilib ki, sözlərnən musiqi həmrəngdir, ahəngdardı. Biz cəhəti də deyim ki, – Aygün özünə və yaradıcılığına çox tələbkar yanaşan bir insandı.

***- Aygün Səmədzadənin "Tut ağacı" mahnısı da, tut ağacı da yəqin ki, uşaqlıq xatirələrinə, nostaljiyə köklənmiş, doluğun, gerçək bir obrazdır. Cəsarətlə demək olar ki, bu mahnı Azərbaycan mahnı dünyasında xüsusi yer tutur. Bizcə, "Tut ağacı"nı "şedevr mahnılar" cərgəsinə yazmamaq günah olardı...***

- Allah rəhmət eləsin, professor Yaşar Qarayevə. Yaşar Qarayev " Tut ağacı" mahnısının təqdimatından sonra tarixi bir yazı yazdı, o yazı çap da olunub... Mən onun şahidiyəm ki, mahnının klipini çəkəndə Aygün özü nə qədər əziyyət çəkdi. Və klipin elementlərini də, yəqin fikir vermisiz, onun hamısını Aygün özü seçib... Yəni kəndlər boşalır, qapılardan qıfıllar asılıb. Baxımsızlıq ucbatından çox yerlərdə tut ağacları quruyub, kəsilib, odun kimi ocağa qalanıb. Məncə, bunlar, adi hisslər deyil. "Tut ağacı" mahnısı biganəliyə, təbiətə qarşı amansız olan insanlara etiraz, üsyan deməkdi.

***- Tut ağacı doğrudan da Abşeronun təbiətinə – torpağına yaraşan ağacdı...***

- Tut ağacı burda bir rəmzdi – həm bərəkət, həm nemətdi... İndi rast gəlinmir, amma əvvəllər Abşeron, Bakı bağlarında tutdan nə qədər doşab, mürəbbə bişirilərdi. Bunun özü bir mərasim idi. Və sonra tutu Abşeron günəşinin altında qurudardılar. Və insanların çoxusu – onda sənaye-filan yoxuydu... çoxusu il ərzində bu nemətlərdən ləzzətlə dadardı. Bunu ona görə deyirəm ki, Aygünün mahnılarında, – istər "Tut ağacı" olsun, ya digər mahnıları – onların heç birində sünilik, saxtalıq yoxdu. O mahnıların hamısı gerçək həyatdan süzülən mahnılardı... Adamlar – uşaq-böyük, tut ağacına çıxardı, tut çırpmağın özü bir aləmiydi... Mən bu il bağda oğlum, Elşada dedim ki, gəl səninlə elə eləyək ki, yerə bir dənə də tut düşməsin. Səliqəylə yelkən qurduq, sonra tutu çırpdıq. Əvvəllər belə şey yoxuydu. Səhərin gözü açılan kimi hamımız qaçırdıq tut ağacının altına – pendir, çörək, qarpız yeyirdik. Tuturdu bizi, gun qurtardı, xörək yox, bir şey yox və sairə. Yəni uşaqlığımız, məclislərimiz də elə tut ağacının altında keçərdi. Vaxtilə bizim həyətdə uşaq bağçası vardı. Hesab eləyin ki, yüzə yaxın uşaq o tut ağacının altında səhər yeməyini, günorta naharını yeyərdi... Axşam, həm də gündüz boş vaxt olan kimi masalar yığışardı, çalıb-oynardılar. Yəni gerçək olan bu idi. Çox istərdim... Arzum budur ki, bizim bəstəkarlarımız, rəssamlarımız, sənət adamlarımız təbiətə qayıtsınlar, təbiətdən üz döndərməsinlər, əksinə üzlərini təbiətə çevirsinlər. Çünki, nəsillər dəyişdikcə, biz heç şübhəsiz ki, bəzi dəyərləri itiririk... amma, qaytardıqlarımız da var. Məsələn, Aygünün "Tut ağacı" mahnısından sonra, Abşeronun çox yerində tut ağacları əkilməyə başlandı. İndi bizim bağımızda iki tut ağacı var. Mən onların üstündə yarpaq kimi əsirəm ki. Ay Allah, yaşları çoxaldıqca, qartlaşdıqca, başqa yerdə yenə təzəsini əkirəm ki, böyüsünlər. Bir sözlə, mən heç vaxt istəməzdim ki, Abşeron bağlarından tut ağacı əksilsin...

***- Ola bilməz ki, sənət xiridarı, musiqi vurğunu Ziyad Səmədzadə heç mahnı bəstələməsin və ya bu həvəsdə olmasın?***

- Bayaq dedim axı, mən not bilmirəm. Ayrıca musiqi savadım da yoxdu. Musiqi bəstələmək dediz... Hə... 17 yaşındaydım. Tar çalırdım. O vaxt mahnı bəstələdim. Düzü, heç bunu qarşıma məqsəd də qoymamışdım. Getdim dedim ki, mahnı bəstələmişəm. Buzovnada dedilər verin bunu Xalq yaradıcılığı evinə. O vaxt Xalq yaradıcılıq evləri vardı. Getdik ora, təqdim elədik. Bir müddətdən sonra gördüm ki, həmin mahnını nota salıblar. Musiqisi Ziyad Səmədzadənin, sözləri Səməd Vurğunun... "Bəşərin vicdanı, eşqi, ürəyi, Eşqi düşüncəsi, fikri diləyi, Hər zövqü-səfası..." Mənsə bu gün deyirəm: hər zövqü-səfası Buzovnadadır. Yəni... onda da not bilmirdim, indi də bilmirəm. İqtisadçı olsam da, həmişə musiqiyə can atmışam. O vaxt Bakıdakı 190 nömrəli məktəbdə bir ansambl təşkil elədim. Aygünün anası orda oxuyurdu. Fikirləşirdim ki, o ansamblı yaradım, bəlkə qızın könlünü gördüm. Mahnı da bəstələdim. Bizim ansambl olimpiadada iştirak elədi. Yeri gəlmişkən, Allah Sona xanım Taqiyevaya rəhmət eləsin. 60 ilə yaxın o məktəbdə direktor oldu və 190 nömrəli məktəb bu gün də Azərbaycan təhsil sistemində çox mühüm yer tutan məktəblərdən sayılır. Mənim nəvələrimin dördü də 190 nömrəli məktəbi bitirib...

***- Nəvələrdən söz açmışkən... Allah xoşbəxt eləsin, az qala bütün Bakı Sizin nəvənizin toyundan danışır. Üzləşdiyimiz, çox tez-tez rast gəldiyimiz toylardan fərqli – milli ruha sadiq, bütün toy-düyün adətlərimizi göz qabağına gətirən, yenidən canlandıran o toyla sanki "Əsl Azərbaycan toyu necə olmalıdır?" sualına tutarlı bir cavab vermisiz.***

- Bəli, nəvəmin toyu doğrudan da ürəyimcə oldu. Ümumiyyətlə, göz dəyməsin, bizim nəsldə toylar maraqlı keçir. Bizim toylarda hamı, bütün nəslin üzvləri sonda, mənim iştirakımla bir yerdə mahnı oxuyuruq. Ülkərin, Aygünün qızının toyu da əsl toy idi – Azərbaycan toyu! Elə Aytənin qızı Könülün toyu da həmçinin. Çox sərbəst hiss eləyirdik özümüzü. Həddindən artıq. Bizim ailədə rəsmiyyət çox azdı. Toya dəvət etdiyimiz insanlar da özgə deyil – qohum-qardaşdı, dostlardı. Hörmət-izzət, o subardinasiyadı-nədi, o da gözlənilir, amma heç kəs özünü dartmır, heç kim heç nədən çəkinmir. Hamımız bir ailə kimi oluruq. Nəvəmin toyu üçün Aygün özü də bir mahnı bəstələmişdi. Mahnıda onun bir sözü var – o gün olsun, sən də mənim kimi qızının toyunda oynayasan. Bir söz də mənimkiydi ki, – o gün olsun, sən də mənim kimi nəvə toyunda oynayasan. Yəni bu doğrudan da çox gözəl, yerinə düşən mahnı idi. Aygünlə övladlarım, bacım uşaqları sürpriz eləmişdi. Çox gözəl alındı. Və nə gözəl ki, toy da elə keçdi. Bilirsiz, Azərbaycan toylarının bənzərsiz bir tarixi var. Kinolarda görsədilir. Ümumiyyətlə bizim zəngin tariximiz var. Hər elin-obanın da öz adət-ənənəsi, özəlliyi... Yeri gəlmişkən, mütləq deməliyəm ki, qloballaşma, inkişaf, texniki tərəqqi, inteqrasiya və s. bizim toylara müsbətlə yanaşı, vecsiz, bizə yad olan cəhətlər də gətirir. Hay-küy, masa üstünə çıxarılan həddən artıq bolluq, daha doğrusu, israfçılıq. Bizim məclislərdə bundan uzaqlaşdıq, belə şeyləri yaxına buraxmadıq və Ülkərin toyunda, elə Aytənin qızının, kiçik qızımın, elə Aygünün qızının toyunda da yalnız Aygünün musiqisini sevən sənətçilər oxuyurdu. Bizim məclisdə bayağı musiqidən, çığır-bağırdan, zövqsüz hay-küydən söz ola bilməzdi. Gecə saat 1-2-nin yarısı idi. Amma qonaqlar o toydan dağılışmaq istəmirdi. Biz hələ saat 1-dən sonra başladıq təzədən əsl milli rəqslərimizi oynamağa. Bundan da böyük xoşbəxtlik olarmı? Nəvə toyunda oynayasan! Ona görə mən hamıya arzu elərdim ki, siz də nəvə toyunda, nəvələrinizin toyunda oynayasız!




***- Çox tez-tez xarici səfərlərdə olursuz. Boynunuza alsaz da, almasaz da yəqin ki,***



***Azərbaycan üçün, musiqimiz üçün, lap konkret desək, tarımız üçün yəqin ki, darıxırsız. Xaricdə olanda musiqi vurğunu olduğunuzu büruzə vermisinizmi?***

- Bəli, mən tez-tez xarici səfərlərdə oluram. Boynuma alım ki, son vaxtlar gedəndə Aygünün musiqilərini özümlə aparıram. Yadımdadı, 84-cü ildə biz Fransada idik. Ruhları şad olsun – Həbib Bayramovun, Kərim Kərimovun, Lütfiyar İmanovun... Xuraman xanım Qasımovaya Allah can sağlığı versin. Onda SSRİ mədəniyyəti günlərini Azərbaycan təmsil edirdi. Mən nümayəndə heyətinin rəhbəri idim. Mərkəzi Komitədə işləyirdim. İncəsənət ustalarımız Parisdə konsert verdi. İren Melikoff vardı onda, Allah o dünyasını versin. Onu vaxtilə ulu öndər Heydər Əliyev də qəbul etmişdi. İren xanım əslən azərbaycanlıydı, çoxdan Fransada yaşayırdı. Özü də Azərbaycan mədəniyyətinin təbliği sahəsində çox böyük iş görürdü. Bəli, İren xanım bizi öz evinə dəvət elədi. Onu da deyim ki, Fransada güclü muğamşünaslar var. Jak Dürinqin adını çəksəm kifayətdir. Nə isə... Evdə də bir fransız tarda muğam çaldı. Eldə Həbib Bayramov kimi məşhur tarzənin yanında tar çalmaq düzgün olmazdı. Amma, neyləməli? Onda özümü saxlaya bilmədim, mən də bir az dınqıldatdım...

Yadımdadı, Parisdən Strassburqa gedirdik. Heç kəsin xəbəri yoxuydu, mən Alimin oxuduğu "Segah"ı əvvəlcədən ötürmüşdüm ki, yolda şofer qoysun maqnitofona. Təsəvvür eləyin, yola çıxandan on dəqiqə sonra, biz öz aramızda söhbət eləyən əsnada birdən avtobusda Alimin "Segah"ı eşidildi. Hamı mat-məətəl qaldı ki, bu nə olan şeydi? Sonra başa düşdülər ki, bu məsələ məndən keçib. 91-ci ildə, yeni Azərbaycan öz müstəqilliyini qazanandan sonra mən İranda oldum. Təbrizdə də özümüzü saxlaya bilmədik. Axı o vaxt orda musiqi sarıdan çox sıxıntı vardı. Dəxli yoxdu, özümüz zümzümə elədik. Sonra Alim Qasımovun "Segahını" da oxutduq. Alimin o "Segah"ını, həmin kasseti özümlə mən hər yerə aparırdım. Hətta rayona gedəndə də. On il bundan əvvəl Alim Qasımova dedim ki, "Alim, sənin o "Segah"ın çox yerdə mənə yoldaşlıq eləyib". Dediyim nədi? Yeni harda oluruqsa-olaq, Azərbaycanımızdan ayrı düşməyək. Azərbaycan musiqisini, muğamlarımızı, mahnılarımızı qəlbimizdə gəzdirməliyik. Mən özüm hara gedirəmsə gedim, Azərbaycan musiqisi mənim qanımda-canımdadır... Doğma musiqi ürəyimdə, ruhumda mənimlə bütün dünyanı gəzib-dolaşır.

***- Milli dəyərlərin, ailənin iqtisadiyyatdakı roluna yüksək qiymət verən bir alim kimi, bu xüsusda gənclərə tövsiyyəniz yəqin ki, olmamış deyil...***

- Gənclərə tövsiyyəm nə ola bilər? Onu deyim ki, gənclərlə bağlı problem yazılar çox yazmışam. Çünki mən özüm də gənclik illərimdə çox fəal idim. Lenin komsomolu mükafatı almışam. Qaldı indiyə... Mənim fikrimcə, Azərbaycanda çox dəyərli bir gənc nəsil yetişir. Savadlı, hər şeydən baş çıxaran və gözüaçıq... Əminəm ki, dünyanın harasında olur-olsun, onlar Azərbaycanı layiqincə təmsil etməyə qadirdirlər. Nə gözəl ki, hazırda doğma Azərbaycandan kənarda təhsil alan gənclərimiz bəs qədərdir. Amma, bir şərt var – harda olursan ol, harda oxuyursan oxu – Azərbaycanı, doğma elini-obanı, millətini yaddan çıxarma, milli dəyərlərimizi unutma. Mən qloballaşmanın əleyhinə deyiləm. Qloballaşma obyektiv, dünyəvi bir prosesdir. Hələ 15 il əvvəl bu barədə öz düşüncələrimi bəyan etmişdim və bu gün də deyirəm ki, qloballaşmanın müsbət keyfiyyətləri ilə yanaşı mənfi cəhətləri də çoxdur. Bu mənfi cəhətləri kiçik xalqlar daha çox hiss eləyir. Qloballaşma dövründə sən gərək öz ana dilini, mədəniyyətini qoruyasan! Böyük dövlətlər, çoxlu əhalisi olan dövlətlər öz mədəniyyətlərini kiçik ölkələrə nə qədər sürətlə yeridirərsə, bir o qədər təhlükəlidir. Ona görə də bu gün Azərbaycanda milli musiqinin qorunması, Ana dilimizin qorunması, Azərbaycan mədəniyyətinin, tarixi köklərimizin qorunması müstəqilliyimiz üçün təməl şərtlərdir. Bilirsiz, hər cürə... ən yüksək inkişafa nail olmaq olar, amma əgər öz dilin, musiqin, ədəbiyyatın, poeziyan, şerin, bir sözlə öz mədəniyyətin yoxdusa... çox şey qıraqdan gəlmədisə, deməli səni millət saymaq olmaz. Sən qəriblikdə ola bilərsən, yaşaya bilərsən, amma sən azərbaycanlı kimi gərək çalışıb ən vacib dəyərlərini qoruyasan. Ona görə də xaricə yollanan hər bir gənc bizim nəinki öz ailələrimizin, bütün nəslin belə diqqət mərkəzində olmalıdır: – görəsən, o uşaq orda neyniyir? Kimnən oturub-durur? Bakıya, Azərbaycana hansı dünyagörüşnən qayıdacaq? Əgər o baxışlarnan gələcəksə ki, buranı mən büsbütün Avropaya oxşadacağam, Azərbaycan və azərbaycanlı əxlaqını dəyişdirəcəyəm, "yenilik" gətirəcəyəm – belə dəyişmə heç cürə düzgün sayıla bilməz. Biz xalqımızın durub-oturmağını, əxlaqını, milli adət-ənənələrimizi, gərək həmişə qoruyaq ki, Qərbin üzdəniraq təsiri yoluxucu olmasın. Qərbin xeyirsiz təsiri çoxaldıqca, biz millətimizin varlığını da, müstəqilliyimizin özünü də sual altına qoymuş oluruq, onda heç öz milli təhlükəsizliyimizi belə təmin edə bilmərik... Nə yaxşı ki, son illərdə Azərbaycanı dünyaya daha yaxından tanıtmaq üçün 70 ildə olduğundan daha böyük işlər görülüb və ardıcıl olaraq da görülməkdədir...



***- Milli Məclisdə İqtisadi Siyasət Komissiyanın sədri olaraq, bizdəki ardıcıl tərəqqi yolu elə Sizin gözlərinizin önündən keçir, həm də Siz onun elə fəal iştirakçısı olmusuz – Avropa İttifaqının ekspertləri ilə çoxsaylı görüşlər, saysız-hesabsız araşdırmalarınız, əvəzsiz xidmətləriniz danılmazdı. Son illərdə yazdığınız samballı və son dərəcə gərəkli kitablarınızı sadalmaqla qurtarmaz. Hər halda bir neçəsinin adını mütləq çəkmək lazımdır. Biri çoxcildlik "Böyük İqtisadi ensiklopediyadır", o biri isə İkinci dünya müharibəsi zamanı***

20 835
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



***bütün SSRİ-ni alman caynağından qurtaran Bakı neftinin həmin illərinə həsr olunub. O kitabda faktların, rəqəmlərin, şəkillərin diliylə hər şey öz əksini tapır... Fikrimizcə, son dərəcə dəyərli olan bu kitab hər birimizin kitab rəfində öz yerini tutmalıdır.***

- Özünü tərif olmasın, həqiqətən çox gərəkli bir kitab alınıb. Tək bir faktı deyim – Böyük Vətən müharibəsi illərində SSRİ-nin 5 tankından 4-ü Bakı nefti ilə yeriyirdi. Eləcə hava qüvvələri... Hər şeyi sadalamayacağam. Özünüz kitabda görəcəksiz... Çünki, illər keçdikcə, çox yaxşılıqlar insanların, nəinki insanların, ayrı-ayrı dövlətlərin belə "yadından çıxır", bilərəkdən tarixin torpağına gömülür... Odur ki, bu vaxtacan Neft Bakısının İkinci Dünya Müharibəsindəki həlledici rolunu faktlarla, sənədlərlə ortaya qoyan bir samballı kitab yoxuydu. Mən bu boşluğu doldurmağa çalışdım... Kitab rus dilində işıq üzü görüb... Ana dilimizdəki variantı hazırlanır. İngiliscəyə də tərcümə olunacaq...

***- Yaxşı olardı ki, həmin kitab təkcə Qərb dillərinə yox, Şərq dillərinə – ərəbcəyə, yapon, çin dilinə də tərcümə olunaydı. Bura çatanda bir cəhəti də mütləq qeyd etmək lazımdır. Adət eləmişik ki, elm sahələrinin əksərində mütəxəssislər, o cümlədən iqtisadçılar, örnək kimi çox vaxt Qərbi nümunə sayırlar. Ziyad Səmədzadə isə onların çoxusundan fərqli olaraq, Qərbə yox, Asiyaya, Qədim Şərqə üz tutur. Daha doğrusu, Çinə... Bunun səbəbi nədir?***

- Əcəb yadıma düşdü... Bu günlərdə "Literaturnaya qazeta"da bir şey oxudum və tez də bizim dilə çevirdim. Lermontov muzeyinin direktoru, şairin bir məktubundan misal gətirir. Yüksək savad görmüş, Qərb dillərini gözəl bilən, kübar nəsildən olan Lermontov öz dostuna görün nə yazır:

"...Niyə biz Avropanın, fransızların ardınca düşüb getməliyik?.. Onu deyim ki, şəxsən mən asiyalılardan çox şey əxz eləmişəm. İstərdim ki , Asiya, Şərq təfəkkürü və mədəniyyətindən daha artıq agah olum. Hansı ki, bunun kökləri bizim üçün, elə onların özləri üçün də axıracan bəlli deyil. Dostum, səni inandırım ki, bir çox sirlərin xəzinəsi orda – Şərqdədir..."

Məncə, əlavə şərhə ehtiyac yoxdur. İndisə sualınıza cavab verim... 1993-cü ildə Çinə ilk səfərə getdim... Qayıdandan sonra bu barədə silsilə məqalələr yazdım. O vaxtdan dəfələrlə Çində olmuşam. Demək olar ki, Çin iqtisadiyyatını köklü şəkildə, dərindən araşdırmışam. Çinə həsr olunmuş üç qalın kitabım çap olunub... Çin – qüdrətli dövlətdi, çin xalqı böyük xalqdı. Əhalisinin sayı 1,4 milyardı ötüb. Çin – bəşər sivilizasiyasının ən qədim qaynaqlarından biridir. Peyğəmbər-Əleyhissalam "bilik dalınca lazım olsa lap Çinə qədər gedib çıxmağı" məsləhət görürdü. Bu gün Çin dünyaya sakitcə meydan oxuyur, ümumi istehsal həcminə görə birinci yerə çıxıb. Baxırsan ki, o qədər də əlverişli iqlim şəraiti olmayan bir ölkədi. Gəl ki, özünün ərzaq təhlükəsizliyini tam şəkildə təmin eləyir. Amma 30-40 il bundan əvvəl, Çin çox geridə qalmış bir ölkəydi...

***- Ziyad müəllim, bu yerdə qədim Çin xalq məselini yada salmamaq mümkün deyil... "Sən könlü balıq istəyənə balıq vermə, ona tilov ver", yəni ona balıq tutmağı öyrət...***

- Hə, məşhur məsəldir. Bəli, həqiqətən də qısa zaman kəsiyində Çin əsrlərə bərabər yol keçdi. Nəyin hesabına? İlk növbədə, xalqın səbri, çalışqanlığı, düşünülmüş siyasət nəticəsində, radikallıqdan uzaq olan tədbirlər sayəsində. Özüm sezdiyim bir cəhəti də gərək deyəm – çinlilər hər şeydə konsensus axtarırlar. Dünyanı xilas edəcək bir qüvvə varsa o da konsensusdu – barışdır, razılığa gəlməkdir. İnsanlar bir-biriləri ilə gərək ədavət aparmasınlar, bir-biriylə mehriban, səmimi olsunlar. Səmimiyyət olan yerdə inkişaf da olar, tərəqqi də. Mən öz uşaqlarıma, nəvələrimə də deyirəm – küsmək üçün də, küsüb barışmaq üçün də həmişə yer qoyun. Məsələlərin hamısını sülh yolu ilə həll etmək lazımdır. Çinlilər də səbrlə, tələsmədən, təmkinlə, radikallıq etmədən, milli mənafelərini qorumaqla inkişaf ediblər. Dünyanın bir sıra ölkələrində 60-70 milyona qədər çinli yaşayır. Amma onlar heç vaxt öz "içlərini" dəyişmirlər. Çinli istəyir Amerikanın, dünyanın lap ucqarında, özü də çoxdan yaşasın, yenə də özünü çinli kimi aparacaq və ömrünün axırına kimi çinli olaraq da qalacaq...

***- İstər-istəmiəz bizim diasporamız yada düşür...***

- Bəli, ona görə də bizim diasporamızla, xaricdə yaşayan azərbaycanlılarla iş o qədər səmərəli qurulmalıdı ki, onlar özlərini tək-tənha saymasınlar, həmişə hiss eləsinlər ki, mənim arxamda Vətənim, Azərbaycan dayanıb; mənim qədim mədəniyyətim, adət-ənənəm var... Bu yaxınlarda bir ölkədə oldum. Ordakı qəzetlərin birində az qala təlimat vardı ki, xaricdə yaşayan həmyerliləri ilə, diaspora ilə münasibətlər necə qurulmalıdır? Bax, bu məsələ, bu problem bizdə də mövcuddur, biz də bu barədə ciddi fikirləşməliyik. – Görəsən, biz Azərbaycandan kənarda yaşayan soydaşlarımızla tam şəkildə, layiqincə əlaqə saxlayırıqmı, onları yaddan çıxarmırıq ki? Mənə elə gəlir ki, bəzən yaddan çıxarırıq. Məsələn, Rusiyada çox həmvətənlərimiz yaşayır. Onların öz ana dilini öyrənməyi, yaxud da yaddan çıxarmamağı çox vacibdi. Amma illər ötür, təzə nəsil yetişir. Biz işi elə qurmalıyıq ki, indinin uşağı, yəni böyüyən nəsil Azərbaycan dilini yadırğamasın. Bəs biz onlarla əlaqəni necə, nə şəkildə qurmalıyıq? Ünsiyyət vasitəsi nə olmalıdır? Rusiyada yaşayan azərbaycanlı uşaq böyüyüb Bakıya gələndə Azərbaycan dilini bilməyəcək və məcbur olacaq ki, rusca danışsın. Məsələnin başqa tərəfi də var. Eyni zamanda bizim rusca danışan uşaqlarımızın sayı ildən-ilə azalır. Bu da ürəkaçan mənzərə deyil. Ola bilsin, kimlərinsə beynində bəlkə də belə bir fikir var. Amma mən hesab edirəm ki, bu – millətə qarşı düzgün olmayan bir mövqedi. Yəni bunlar adi görükən məsələlər deyil. Mənimsə mövqeyim belədi ki, biz onlarla, yəni xaricdə, Rusiyada, MDB məkanında yaşayan azərbaycanlılarımızla həmişə sıxı surətdə təmasda olmalıyıq.

***- Yazdığınız kitablardan, araşdırmalarınızdan da bəlli olduğu kimi, "iqtisadiyyatımızın son illərdəki uğurları dünyanı heyrətə gətirib desək", heç də yanılmarıq. Necə bilirsiz, xalqın, ölkənin mədəni inkişafında iqtisadiyyat əsas özüllərindən biridir, ya bunsuz da keçinmək olar?***

- Hesab edirəm ki, bütövlükdə iqtisadiyyatla bağlı araşdırmalarımda, mənim haqqımda olan yazılarda bu məsələ kifayət qədər işıqlandırılıb... Azərbaycan iqtisadiyyatına gəlincəsə, yalnız onu deyə bilərəm ki, bu gün Azərbaycan dinamik surətdə inkişaf edən ölkədir. Çətinliklərimiz əlbəttə ki, mövcuddur, torpaqlarımız hələki işğal altındadır... Bəs çarə nədir? Yeganə yol – iqtisadiyyatımızın güclü olmağındadır. Ulu öndər Heydər Əliyevin çox dəyərli bir sözü var: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir..."

***- Nə qədər vaxtınızı aldıq. Gəlin bunu Sizinlə birinci söhbətimiz hesab eləyək. İnşallah, sağlıq olsun, Sizinlə söhbətlərimiz hələ irəlidədir. Onda sənətdən, musiqidən daha geniş danışmağı, necə deyərlər, öhdəmizə götürürük. Sizə uzun ömür, can sağlığı və bundan belə də elmimizin, mədəniyyətimizin inkişafı yolunda elə indiki kimi gənclik həvəsi ilə çalışmağınızı diləyirik. Təşəkkürlərimizi qəbul edin. 75-niz mübarək! Buzovnanı bilmirəm, bəzi dağ kəndlərimizdə belə bir alxış var – Yüzdən on beş artıq yaşayasız...***

- Çox sağ olun...

*Söhbəti* Ayna *hazırladı*